## Nağdsız ödənişlər dövrün tələbidir

«Vergilər» qəzetinin təşkilatçılığı ilə keçirilən «Azərbaycanda nağdsız ödəniş sisteminin inkişaf perspektivləri» mövzusunda «dəyirmi masa»

Azərbaycanda iqtisadi sahədə keçid dövrünün başa çatması, respublikamızın sosial-iqtisadi cəhətdən modernləşməsi biznes və maliyyə-təsərrüfat sistemində şəffaf mexanizmlərin tətbiqini zərurətə çevirmişdir. Dünya təcrübəsi sübut edir ki, hesabatlılığın və şəffaflığın təmini sahəsində mühüm tədbirlərdən biri də nağdsız ödəniş sisteminə keçiddir. Ölkədə nağdsız dövriyyənin genişləndirilməsi sahəsində həyata keçirilən sistemli tədbirləri diqqət mərkəzində saxlayan «Vergilər» qəzetinin təşkil etdiyi «dəyirmi masa»da son illər bu sahədə əldə olunan mğsbət nəticələr, həllini gözləyən problemlər, eləcə də qarşıda duran vəzifələr geniş müzakirə olunmuşdur.

Tədbirdə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev, nazirliyin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin düvlət qeydiyyatı Baş İdarəsinin rəisi Natiq Şirinov, Operativ Nəzarət İdarəsinin şübə rəisi Bəhruz Şahmirzəyev, Audit və operativ nəzarət sahələri ğzrə mğşavir xidməti bülməsinin rəisi Ümər Cəfərov, Analitik-informasiya şübəsinin baş düvlət vergi mğfəttişi Rüvşən Məmmədov, Mərkəzi Bankın Üdəniş sistemləri və hesablaşmalar departamentinin direktor mğavini Vahid Qurbanlı, İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakzıların Hğquqlarının Mğdafiəsi Düvlət Xidmətinin şübə mğdiri Zahid Şərifov, Azad İstehlakzılar Birliyinin sədri Eyyub Hğseynov, Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gğndğz, Azərbaycan-Amerika Ticarət Palatasının (AMCHAM) siyasət və hğquq məsələləri ğzrə koordinatoru Şahid Şğkğrov, «MilliKart» MMC-nin Əməliyyat şübəsinin rəisi İlqar İbrahimov, «Golden Pay» şirkətinin təsiszisi Fərid İsmayılzadə, «Atabank» ASC-nin departament direktoru Teymur Axundov, Azərbaycan Sənaye Bankı İdarə Heyəti sədrinin mğşaviri Doğan Tandoğan iştirak etmişlər.

***Əhalinin maarifləndirilməsi mühüm şərtdir***

«Dəyirmi masa» iştirakçılarına dəvəti qəbul edib tədbirə qatıldıqları üçün minnətdarlığını bildirən «Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev demişdir:

- Nağdsız ödəniş sisteminin inkişafı bütün dünyada yüksək mədəniyyət göstəricisi, şəffaflığın təmin olunması və vergidən yayınma hallarına qarşı səmərəli mübarizənin mühüm elementlərindən biri kimi qəbul edilir. Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti ölkənin sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsində nağdsız dövriyyənin genişləndirilməsini dövlət strukturları qarşısında başlıca vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Xatırlatmaq lazımdır ki, ölkə başçısının 2005-ci il 22 noyabr tarixli «Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» sərəncamı Azərbaycanda milli ödəniş sisteminin inkişafı məqsədilə xüsusi dövlət proqramının hazırlanmasını, elektron ödəniş sistemlərinin inkişafını, vətəndaşların bu sahədə maarifləndirilməsini, ümumilikdə dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsini nəzərdə tuturdu. Sərəncamla pərakəndə ticarət, iaşə və xidmət müəssisələrində hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması məqsədi ilə POS-terminalların beynəlxalq standartlara uyğun tətbiqi qaydalarının hazırlanması məsələsi önə çəkilmişdi.

Dövlət başçısının 2009-cü il 14 aprel tarixli sərəncamı ilə təsdiqlənmiş «Azərbaycan Respublikasında 2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda da nağdsız ödəniş vasitələrinin - POS-terminalların, bankomatların, info-köşklərin quraşdırılmasının sürətləndirilməsi üçün stimullaşdırıcı tədbirlərin görülməsi nəzərdə tutulmuşdu. Ötən illərdə Azərbaycanda nağdsız ödənişlərin həcminin əhəmiyyətli dərəcədə artması aidiyyəti dövlət strukturlarının, ilk növbədə Vergilər Nazirliyinin, Mərkəzi Bankın və İqtisadi İnkişaf Nazirliyinin həyata keçirdikləri ardıcıl tədbirlərin, maarifləndirmə işinin nəticəsidir.

Nazirlər Kabinetinin 2012-ci il oktyabrın 4-də təsdiqlədiyi «Azərbaycan ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları»na əsasən, ölkədə POS-terminalların quraşdırılması prosesinin 2015-ci ilin sonunadək başa çatdırılması nəzərdə tutulur. Hökumət səviyyəsində həyata keçirilən məqsədyönlü və ardıcıl tədbirlər yaxın illərdə bu sahədə əhəmiyyətli dönüşün baş verəcəyini əminliklə söyləməyə ciddi əsaslar yaradır. Şübhəsiz, bu baxımdan medianın da üzərinə mühüm vəzifələr düşür. Vətəndaşlar bu sahədə lazımi səviyyədə maarifləndirilməsə, nağdsız ödəniş vasitələrinin inkişafı istiqamətində atılan addımlar arzu edilən

səmərəni verməyəcək. Məhz bu reallığı nəzərə alan «Vergilər» qəzeti nağdsız ödəniş sisteminin inkişafı ilə bağlı maarifləndirici yazılara öz səhifələrində geniş yer ayırır.

Açıq deməliyik ki, həyata keçirilən məqsədyönlü və ardıcıl tədbirlərə baxmayaraq, ölkədə nağdsız ödənişlər sahəsində müəyyən problemlər hələ də özünü qabarıq göstərir. Ciddi problemlərdən biri sahibkarlıq subyektlərinin POS-terminallardan istifadəyə maraqlı olmamasıdır. Məsələ burasındadır ki, bu gün ölkdə banklarının POS-terminallardan istifadəyə görə tətbiq etdikləri yüksək faiz dərəcələri sahibkarları qətiyyən qane etmir. Belə olduqda onlar ödədikləri əlavə faizləri satdıqları malın, göstərdikləri xidmətlərin qiymətlərinə əlavə etməyə çalışırlar. Son nəticədə zərər çəkən isə istehlakçılar olur.

Digər tərəfdən, bu gün ölkədəki ticarət və xidmət obyektlərində quraşdırılmış POS-terminallardan istifadə sahəsində vətəndaş fəallığı da arzuolunan səviyyədə deyildir. Bir çoxları hələ bunun üstünlüklərini lazımi səviyyədə dərk edə bilmirlər. Nağdsız ödənişlərin stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin də sistemli olmaması özünü problem kimi göstərir. Bəzi hallarda isə ticarət və xidmət obyektlərində quraşdırılmış POS-terminallardan istifadəyə süni əngəllər yaradılır.

Bugünkü «dəyirmi masa»nın təşkilində də məqsəd Azərbaycanda nağdsız ödənişlərin genişləndirilməsi sahəsində həyata keçirilən tədbirlərə nəzər salmaq, müzakirələr aparmaq, qarşıda duran vəzifələri, eləcə də problemləri obyektiv şəkildə göstərməkdir. Hesab edirəm ki, sizin hər birinizin peşəkar mütəxəssis kimi səsləndirəcəyiniz fikirlər qəzetimizin oxucuları üçün də maraqlı olacaqdır.